# Azərbaycan dili 2

DƏRSLİK

*dövlət dili*

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

RAFİQ İSMAYILOV, ÜLKƏR NURULLAYEVA, AYNUR RÜSTƏMOVA

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün

# Azərbaycan dili 2

dövlət dili

fənni üzrə

## DƏRSLİK

©Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **artitrm2017@gmail.com** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# MÜNDƏRİCAT

## 1-ci hissə. Əlifba təlimi

### 1 Ailə və məktəb


| | | | |
|---|---|---|---|
| 1 | Bizim ev | **A, N** hərfləri | 8-11 |
| 2 | Məktəb bazarlığı | **Ə, L** hərfləri | 12-13 |
| 3 | İki alma | **M, I, İ** hərfləri | 14-15 |
| 4 | Ərköyün siçan balası | **T, B** hərfləri | 16-19 |
| 5 | Ümumiləşdirici təkrar | | 20-21 |

### 2 Ana vətən


| | | | |
|---|---|---|---|
| 1 | Vətən nədir | **R, D** hərfləri | 22-27 |
| 2 | Novruz bayramı | **S, Ş, K** hərfləri | 28-29 |
| 3 | Meymun balası | **Y, O, Ö** hərfləri | 30-31 |
| 4 | Ümumiləşdirici təkrar | | 32-33 |


### 3 Heyvanlar və quşlar


| | | | |
|---|---|---|---|
| 1 | Heyvanlar necə qorunurlar? | **P, U, Ü** hərfləri | 34-37 |
| 2 | Arıların qəzəbi | **V, E** hərfləri | 38-39 |
| 3 | Ördək balası və cücə | **G, Ğ, Z** hərfləri | 40-41 |
| 4 | Ümumiləşdirici təkrar | | 42-43 |

### 4 Nağıllar aləmində


| | | | |
|---|---|---|---|
| 1 | Çil toyuq və siçan balaları | **C, Ç, Q** hərfləri | 44-47 |
| 2 | Tülkü və Leylək | **H, X** hərfləri | 48-49 |
| 3 | İtlə insan necə dost oldu | **F, J** hərfləri | 50-51 |
| 4 | Ümumiləşdirici təkrar | | 52-53 |

# 2-ci hissə. Oxu və yazı

## 5 Yaxşı nədir, pis nədir


| | | |
|---|---|---|
| 1 | Yaxşı nədir, pis nədir | 54-55 |
| 2 | Əqrəb və Qurbağa | 56-57 |
| 3 | Yaxşılıq | 58-59 |
| 4 | Hamıdan qəşəng | 60-62 |
| 5 | Ümumiləşdirici təkrar | 63 |

## 6 Şeirlər


| | | |
|---|---|---|
| 1 | Bənd, misra, qafiyə | 64-65 |
| 2 | Əvəz istəməz | 66-67 |
| 3 | Hesab | 68-69 |
| 4 | Yaşar sənət seçir | 70-72 |
| 5 | Ümumiləşdirici təkrar | 73 |


## 7 Təbiətin sirləri


| | | |
|---|---|---|
| 1 | Heyvanlar haqqında tapmacalar | 74-75 |
| 2 | Dörd arzu | 76-77 |
| 3 | Göbələk | 78-79 |
| 4 | Göydən qoz yağır | 80-82 |
| 5 | Ümumiləşdirici təkrar | 83 |

## 8 Sağlam həyat


| | | |
|---|---|---|
| 1 | Sağlam həyatın şərtləri | 84-85 |
| 2 | Məstan və dişlər pərisi | 86-89 |
| 3 | Gün rejimi | 90-91 |
| 4 | Mauqli | 92-94 |
| 5 | Ümumiləşdirici təkrar | 95 |

# Kitabınızla tanış olun

## BİRİNCİ YARIMİL

### Söz mücrüsü

“Söz mücrüsü” sizi bu dərsdə rast gəldiyiniz yeni sözlərlə tanış edir.

4-cü bölmə. Nağıllar aləmində
Dinləmə və danışma

Tülkü və Leylək

Söz mücrüsü
dolça • dimdikləmək
söhbət etmək • süfrə
nuş olsun • dəyərli • hin

Günlərin bir günü Leyləklə Tülkü dost olurlar. Tülkü Leyləyi evinə qonaq çağırır.

- Ye, nuş olsun. Sən mənim ən dəyərli dostumsan.

- Belə də dostluq olar?! Bundan sonra sənlə dostluq etməyəcəyəm.

Nə anladın?
1. Tülkünün səhvi nədə idi?
2. Leylək ona necə cavab verdi?
Düşün və cavab ver.
3. Sənca, Leylək haqlı idimi? Nə üçün?
4. Sən Leyləyin yerində olsaydın, nə edərdin?

48

### Nə anladın?

Bu hissədə dinlədiyiniz mətnlə bağlı suallar verilir.

### Düşün və cavab ver.

Buradakı suallara cavab verməklə siz mətndəki obrazlara və hadisələrə münasibətinizi bildirirsiniz.

### Oxumağı öyrənək

Yeni hərflərlə tanış olur, həmin hərflərin iştirakı ilə yaranan söz və cümlələr oxuyursunuz.

Oxumağı öyrənək

Hh Xx

həkim heyva xiyar xurma

1 Sözləri oxuyun. “H” və “x” səslərinin tələffüzündəki fərqə diqqət yetirin.
himn, bahar, xain, həyat, xala, həsir,
xəmir, şaxta, həmin, xəstə, hasar, hamı

2 Mətni oxuyun.
Tülkü vəhşi heyvandır. Gecə ova çıxır. Hindən toyuq-cücə aparır. Meşədə dovşan ovlayır. Ovunu yuvasına gətirir. Tülkü hiyləgər heyvandır. Onun hiyləgərliyi haqqında çoxlu nağıllar var.

Yazmağı öyrənək

Hh himn söhbət Həsən Həlimə
Xx xeyir şaxta xala Xəlil

A N Ə L M I İ T B R D S Ş K Y O Ö P U Ü V E G Ğ Z C Ç Q H X F J

49

### Yazmağı öyrənək

Yeni öyrəndiyiniz hərflərin hüsnxət normaları ilə tanış olursunuz. Hərfləri və sözləri dəftərinizə köçürürsünüz.

# İKİNCİ YARIMİL

## Dərsə hazırlıq

Mətnlə tanışlıqdan əvvəl mövzu üzrə bildiklərinizi danışırsınız.

5-ci bölmə. Yaxşı nədir, pis nədir

ƏQRƏB VƏ QURBAĞA

Dərsə hazırlıq

1. Həyatınızda hansı yaxşı hərəkətlərlə rastlaşmısınız?
2. Sizə yaxşılıq edən insanlara necə təşəkkür etmisiniz?

Söz mücrüsü

qurbağa • əqrəb
çay • sancmaq • adət

Əqrəb çayı keçmək istəyirdi. Amma üzə bilmirdi.
O, Qurbağaya yaxınlaşdı:
- Qurbağa qardaş, kömək elə, çayı keçim.
Qurbağa Əqrəbə çayı keçməyə kömək etdi.

Çayın ortasına çatanda Əqrəb dedi:
- Qurbağa qardaş, gərək mən səni sancım.
- Ay Əqrəb, axı mən sənə kömək edirəm. Məgər yaxşılığın əvəzini belə çıxarlar?!
Əqrəb:
- Bağışla, Qurbağa qardaş. Mən əqrəbəm, sancmaq mənim adətimdir.

Qurbağa təəssüflə cavab verdi:
- Düzdür, sən əqrəbsən! Ancaq bil ki, mən də qurbağayam. Hərdən suyun altı ilə üzürəm.
Bunu deyib Qurbağa suyun altına girdi.

56

## Düzgün danışaq və yazaq

Bu dərsdə cümlələri düzgün qurmaq üçün nümunə və tapşırıqlar verilir.



Nə anladın?

3. Mətn və şəkillər əsasında suallara cavab verin.
1. Əqrəb Qurbağadan nə xahiş etdi?
2. Qurbağa Əqrəbə necə kömək etdi?
3. Əqrəb nə üçün Qurbağanı sancmaq istəyirdi?
4. Qurbağa Əqrəbin hərəkətinə necə münasibət göstərdi?

Düşün və cavab ver

4. Sizcə, Qurbağa Əqrəbə başqa nə deyə bilərdi ki, Əqrəb onu sancmasın?

Düzgün danışaq və yazaq

5. Mətnə əsasən cümlələri tamamlayıb oxuyun.
- Düzdür, sən əqrəb...! Ancaq bil ki, mən də qurbağa... .

Yadda saxla

1. Mən şagirdəm. 2. Sən şagirdsən. 3. O, şagirddir.
4. Biz şagirdik. 5. Siz şagirdsiniz. 6. Onlar şagirddirlər.

6. Cümlələri tamamlayıb köçürün.
1. Mən cəsur oğlan... .
2. Sən çalışqan şagird... .
3. Bu gün hava isti... .
4. Biz ayrılmaz dostlar... .
5. Siz qoçaq oğlanlar... .
6. Onlar çox mehriban uşaqlar... .

57

## Yadda saxla

Verilmiş cümlə nümunələrinin quruluşunu yadda saxlayıb nitqinizdə istifadə edəcəksiniz.

# 1 Ailə və məktəb

**Nə anladın?**

**1.** Ayxangil hansı şəhərdə yaşayırlar?

**2.** Ayxanın valideynləri harada işləyirlər?

**Düşün və cavab ver.**

**3.** Öz ailə üzvləriniz haqqında danışın.

# Bizim ev

**Söz mücrüsü**

qonaq otağı • yataq otağı
uşaq otağı • yazı masası
hamam • xalça • dəhliz
həyət • it evciyi



## Nə anladın?

**1.** Mənzil neçə otaqdan ibarətdir?
**2.** Yataq otağı ilə mətbəx arasında hansı otaq yerləşir?

## Düşün və cavab ver.

**3.** Şəkildə təsvir edilən otaqları adlandırın və onlar haqqında danışın.
**4.** Öz otağınızı təsvir edin.

# Oxumağı öyrənək

# Aa Nn

ata ana baba nənə

**1** Şəkildəki varlıqların adlarını deyin. Adlardakı birinci hərfi göstərin.

**Aa Nn**

**2** Hansı musiqi alətinin adı “n” səsi ilə bitir.

# Yazmağı öyrənək

Aa o ı A A aa Aa

Nn na an ana Ana

# MƏKTƏB BAZARLIĞI

**Söz mücrüsü**

satıcı • rəf • piştaxta

**Nə anladın?**

**1.** Ayxan məktəb bazarlığına kimlə gedib?

**2.** O, mağazadan nə alıb?

**Düşün və cavab ver.**

**3.** Hansı məktəb əşyaları ilə işləməyi xoşlayırsınız?

**4.** Bu məktəb əşyalarını hansı məqsədlə işlədirsiniz?

# Oxumağı öyrənək

# Əə Ll

əl  dəftər  lalə  qələm

**1** Şəkillərin adlarını deyin. Adlardakı birinci hərfi səsləndirin və göstərin.

**Əə Ll**

**2** Sözləri hecalarla oxuyun.

əl  ən  nal  əla  nənə  nanə  lalə  Lalə

# Yazmağı öyrənək

Əə  ən  nə  nənə  nanə  ən  ənənə

Ll  lalə  al  əl  əla  Lalə

# İki alma

Ayxan:
– Ana, məsələni düz həll etmişəm?
Ana:
– Yox, Ayxan, bir alma çatmır.

Ayxan:
– Bəs bu alma haradan çıxdı?
Ləman:
– Onu mən çantaya qoydum. Axı deyirdiniz, bir alma çatmır.
Ana:
– Ay mənim mehriban, qayğıkeş qızım.

## Nə anladın?

**1.** Ayxanın ev tapşırığı hansı fənnə aid idi?
**2.** Sizcə, nə üçün Ləman öz almasını Ayxanın çantasına qoydu?

## Söz mücrüsü

səhv • fikirləşmək
yola salmaq • mehriban
qayğıkeş • təəccüblə

## Oxumağı öyrənək

# Mm Iı İi

maşın

ayı

iki

**1** Şəkildəki əşyaların adlarında "m", "ı" və "i" hərfləri hansı rəqəmlərin yerinə yazılmalıdır?

1 2 3 4

1 2 3 4

1 2 3



1 2 3 4 5

**2** Sözləri hecalarla oxuyun.

mala alma amma alın ilə mən məna nal amal

Mina Nailə İman Ləman Alı

## Yazmağı öyrənək

Mm mal amal alım Mina

Iı ın alın Alı

İi il milli liman İman

# Ərköyün siçan balası

– Ciy-ciy, balacam, ciy-ciy,
Evim-evciyim, ciy-ciy,
Buğda, arpa verərəm,
Getsə yuxuya, ciy-ciy.

Qa-qa deyim, yatsın qoçaq,
Şirin yuxu tapsın qoçaq.
Qa-qa, yatsa gözəl balam,
Tırtıl verərəm bir qucaq.
Qa-qa, qa-qa, qa-qa...

**Söz mücrüsü**

ərköyün
keşiyində dayanmaq
naz eləmək • ağcaqanad
tırtıl • buğda • arpa

Qurr-qurr oxuyum, sən yat,
Tutum sənə ağcaqanad.
Qurr, körpə siçanım, qurr-qurr,
Keşiyində dayanım, qurr.
Qurr-qurr, qurr-qurr, qurr-qurr...

Məə, bala siçanım, məə,
Yat artıq, naz eləmə.
Laylay deyərəm, məə-məə,
Süd də verərəm, məə-məə.
Məə-məə, məə-məə, məə...

*Samuel Marşak*

**Nə anladın?**

**1.** Balaca siçana kimlər layla oxudu?

**2.** Hər bir laylada hansı sözlər təkrar olunur?

**Düşün və cavab ver.**

**3.** Səncə, bala siçan Məstanın adını eşidən kimi niyə yatdı?

**4.** Məstan layla oxusaydı, hansı sözləri təkrar edərdi?

# Oxumağı öyrənək

# Tt Bb



**t**əyyarə **at** **b**uzov **b**əbir

**1** Şəkil adlarında "t" və "b" hərflərinin yerini müəyyən edin.

1 2 3 4 5 6 7

1 2 3 4

1 2 3 4 5

1 2 3 4 5

**2** Sözləri hecalarla oxuyun.

ata tala tələ tətil manat baba bala bant bibi

bina Bilal Nəbi Tələt Mətin

# Yazmağı öyrənək

T t at ata tar Tələt Tamam

B b baba bal bala bant Bilal

# Ümumiləşdirici təkrar

**1** **Eyni səsi ifadə edən böyük və kiçik hərfləri uyğunlaşdırın.**




**2** **Şəkildəki varlıqların adlarını deyin.**
**Tərkibində "ə" səsi daha çox olan sözü göstərin.**



**3** **Hansı rənglərin adında "ı" hərfi var?**
**Həmin sözlərdə "ı" hərfinin yerini müəyyən edin.**



**4** Boş xanalara uyğun gələn hərfləri seçin və sözləri oxuyun.

1

[ ] t

2

n a [ ]

3

a l [ ] a

4

[ ] a l t a

5

b a [ ] a n

n b i l m

**5** Şəkillərə baxın. Hərflərdən sözlər düzəldin. Həmin sözləri yazın.

ə t l ə

n b i a

l l a ə

n a l i

Nümunə

**6** Qırmızı rəngli fiqurlar şəkil adlarının baş hərflərini göstərir. Onlardan istifadə etməklə oğlanla qızın adlarını tapın.



▲ ★ ● ■ ♦

♦ ■ ●

# 2 Ana vətən

**Söz mücrüsü**

saz • ipək • bülbül • körpü
pambıq • buruq • fındıq
qoz • rəsədxana • türbə

**Nə anladın?**

1. Azərbaycanın paytaxtı hansı şəhərdir?
2. Azərbaycanda hansı meyvə-tərəvəz yetişir?
3. Azərbaycan ərazisindən hansı çaylar keçir?

**Düşün və cavab ver.**

4. Azərbaycanın hansı bölgələrində olmusunuz?
5. Başqa hansı bölgələrdə olmaq istəyərdiniz? Nə üçün?

# Vətən nədir

**Söz mücrüsü**

padşah • ölkə • kisə • qızıl torpaq • müharibə

– Xanın ölkəsini ələ keçirməliyik. Gedin, deyin, atını mənə versin, yoxsa müharibə olacaq.



– Padşahımız sənin atını istəyir.
– Ağ atımı aparın, verin padşaha. Mən müharibə istəmirəm.

– Gedin, deyin, mənə 40 kisə qızıl versin.

– Aparın qızılları, verin padşaha. Qoy insanlar qırılmasın.

– At istədiniz, verdim. Qızıl istədiniz, verdim. Onlar mənim idi. Amma torpaq bizə babalardan qalıb. Torpaqdan pay olmaz!

## Nə anladın?

**1.** Qonşu padşah xandan nə istədi?

**2.** Nə üçün xan onun istədiklərini yerinə yetirdi?

**3.** Xan padşahın hansı istəyinə etiraz etdi? Nə üçün?

## Düşün və cavab ver.

**4.** Siz xanın yerində olsaydınız, atı və qızılları verərdiniz? Nə üçün?

**5.** Sizcə, xan müharibəyə başlamaqla düz elədi?

**6.** Padşaha və xana münasibət bildirin.

# Oxumağı öyrənək

**Rr**
**Dd**

robot raket dovşan dəvə

**1** Şəkildə gördüyünüz əşyaların adını deyin. Keçdiyiniz hərflərin yerini müəyyən edin.



1 2 3 | 1 2 3 4 | 1 2 3 4 5 | 1 2 3 4 5

**2** Sözləri hecalarla oxuyun.

nar dar nərd təmir nadir dərin ədəb dəmir darı

idman iradə dəri mədəni tələbə dərman Maral

# Yazmağı öyrənək

Rr tar rəndə Ramil Rəna

Dd ədəb dərin Dəmir Dilarə

# Novruz bayramı

**Söz mücrüsü**

kosa • keçəl • paxlava
şəkərbura • qoğal • şənlik
sevinmək • qeyd etmək

## Nə anladın?

**1.** Novruz bayramı nə vaxt keçirilir?
**2.** Bayramda hansı şirniyyatlar bişirilir?
**3.** Bu bayramla bağlı hansı adətlər var?

## Düşün və cavab ver.

**4.** Novruz bayramına aid hansı adətlər daha çox xoşunuza gəlir? Nə üçün?

## Oxumağı öyrənək

**səməni** **şəkərbura** **kosa**

**Ss Şş Kk**

**1** **Sözləri hecalarla oxuyun.**

iki sarı kasa kassa mişar kisə şair şimal şirin

kələm məktəbli Şamil Səbinə Əsmər

**2** **"K" hərfinin səslənməsinə görə sözləri qruplaşdırın.**

kəmər, kart, tank, kibrit, kamal, bank

1. Kisə, kələm, ..., ..., ...

2. Kanal, kassa..., ..., ...

## Yazmağı öyrənək

Ss sarı sirin rast salam Səlim

Şş şar aş daş maşa Şamil

Kk kanal rik ələk Kəmalə

# MEYMUN BALASI

**Söz mücrüsü**

meymun • darıxmaq
qəmgin • gəmi

1

- Meymun, sən burada nə edirsən?
- Sirkdən qaçmışam.

2

- Sən niyə qəmginsən?
- Vətənim üçün darıxıram.

3

- Sağlıqla qal, dost.

**Nə anladın?**

**1.** Eldar ağacda nə gördü?
**2.** Meymun balası Eldara nə danışdı?
**3.** Eldar ona nə təklif etdi?

**Düşün və cavab ver.**

**4.** Sizcə, meymun balası düz etdi?
**5.** Siz Eldarın yerində olsaydınız, nə edərdiniz?

## Oxumağı öyrənək

# Yy Oo Öö

yarasa

torba

kök

**1** **Sözləri hecalarla oxuyun.**

yardım ot orta dolma boya albom böyrək bölmə

şöbə ölkə kol koma yol yoldaş dost Yaşar Ömər

**2** **Sözlərlə şəkilləri uyğunlaşdırın.**

1 limon 2 ördək 3 köynək 4 iynə 5 don

a

b

c

ç



d

## Yazmağı öyrənək

Yy yan yaman dayı Yaşar

Oo od ton kor bol Osman

Öö ördək ölkə dörd Ömər

# Ümumiləşdirici təkrar

**1** **Eyni səsi ifadə edən böyük və kiçik hərfləri uyğunlaşdırın.**

R D Ş K Y Ö

ş ö y d r k

1 2 3 4 5 6

**2** **"K" hərfinin səslənməsinə görə dörd sözdən biri fərqlidir.**

a) kran b) kəklik c) aktyor ç) maska

a) təkər b) kol c) traktor ç) kitab

**3** **Sözlərlə şəkilləri uyğunlaşdırın.**

şaftalı kələm

şir kisə

mişar

## 4 Varlıqların adlarında hecaların sayını müəyyən edin.

1


2


3


4

5

6

## 5 Şəkillərə baxın. Hərflərdən sözlər düzəldin. Həmin sözləri yazın.

t a k i b

a k a s

k ə m b ə t

ə t l i b

Nümunə

kasa

## 6 Hecalardan sözlər düzəldin və dəftərinizə köçürün.

Tə Də Bə Bi Mi

sal bir mir bil bər

Nümunə

tsbil

# 3 Heyvanlar və quşlar

**Söz mücrüsü**

şimal • cənub • səhra
qutan • timsah • balina
köpəkbalığı • bayquş • suiti

**Nə anladın?**

**1.** Şəkildəki hansı heyvanlar və quşlar sizə tanışdır? Onlar haqqında danışın.
**2.** Hansı heyvanlar həm suda, həm də quruda yaşayırlar?

**Düşün və cavab ver.**

**3.** Heyvanlar, quşlar haqqında hansı şeir və ya nağıl bilirsiniz?

**4.** Sizdə daha çox maraq doğuran heyvan hansıdır? Onun hansı xüsusiyyətləri maraq doğurur?

# Heyvanlar necə qorunurlar?

**Söz mücrüsü**

caynaq • iynə • buynuz
neştər • çanaq

Pişik caynaqları ilə qorunur.

Buqələmun rəngini dəyişir.

Keçi buynuzu ilə qorunur.

Kirpi iynələri ilə qorunur.

Arı neştəri ilə qorunur.

**Nə anladın?**

**1.** Şəkildə təsvir edilmiş heyvanlar özlərini necə qoruyurlar?

**Düşün və cavab ver.**

**2.** Sizcə, tısbağa özünü necə müdafiə edər?

**3.** Siz heyvanları necə qoruyursunuz?

## Oxumağı öyrənək

# Pp Uu Üü

**papaq** **ulduz** **üzük**

**1** **Şəkil adlarında çatışmayan hərfi müəyyən edin.**

□*laq*

□*tü*

□*işik*

**2** **Mətni oxuyun.**

Mayın dördü idi. Pərinin altı yaşı tamam olurdu. Ülkər ona şokolad, Polad isə şəkilli kitab almışdı.

## Yazmağı öyrənək

Pp top kirpi parta Polad

Uu un ulu Usta

Üü ütü tüstü Ümid

# Arıların qəzəbi

**Söz mücrüsü**

dəcəl • xortum • yuva
silkələmək • dağıtmaq
sancmaq • zəif • əzmək

1



Fil xortumunu ağaca dolayıb silkələyirdi.

2



– Fil qardaş, xahiş edirik, yuvamızı dağıtma.

3

– Mən burada oynayıram.
– Nə olar, get bir az aralıda oyna.
– Mən heç yerə gedəsi deyiləm. Bir bunlara bax! Bapbalaca boyları var, mənə əmr edirlər.

4



Arılar yuvalarından çıxıb dəcəl Filə hücum etdilər.

5



– Fil qardaş, indi halın necədir? Özündən zəifləri əzənin axırı belə olar!

## Nə anladın?

1. Nağılda hansı heyvanların adı çəkilir?
2. Arılar Fili niyə sancdılar?

## Düşün və cavab ver.

3. Nağılı davam etdirin. Sizcə, Fil bundan sonra zəifləri incidəcəkmi?

# Oxumağı öyrənək

# Vv Ee

**ve**drə **ve**losiped **ev** **e**ynək

**1** Şəkil adlarında “v” və “e” hərflərinin yerini müəyyən edin.

1 2 3 4 1 2 3 4 5 6 1 2 3 4 5 6

**2** Mətni oxuyun.

Validə babası ilə meşəyə yollandı. Onlar itburnu topladılar.
Baba nəvəsinə dedi:
– İtburnu dərman bitkisidir.

# Yazmağı öyrənək

Vv ev nəvə Vətən Validə

Ee ev yeni Emin

# Ördək balası və cücə

**Söz mücrüsü**

soxulcan • xilas etmək
çimmək • batmaq

1

Ördək balası:
– Mən yumurtadan çıxdım.
Cücə:
– Mən də.

2

– Mən soxulcan tapdım.
– Mən də.

3

– Mən göldə çimmək istəyirəm.
– Mən də.

4

– Mən üzürəm.
– Xilas edin! Batıram!

5

– Mən yenə çimmək istəyirəm.
– Mən istəmirəm.

**Nə anladın?**

**1.** Cücə ördək balasının hansı hərəkətlərini təkrar etdi?

**Düşün və cavab ver.**

**2.** Sizcə, cücə nə üçün batırdı?

**3.** "Ördək balası və cücə" mətni əsasında rollu oyun hazırlayın.

## Oxumağı öyrənək

# Gg Ğğ Zz

göyərçin

qarğa

zebr

**1** Şəkil adlarında “g”, “ğ” və “z” hərflərinin yerini müəyyən edin.

1 2 3 4 5

1 2 3 4 5 6



1 2 3 4 5

**2** Mətni oxuyun.

Zeynal dayı Zibanı dənizə apardı. Dəniz ləpəsiz, su isti idi. Onlar dənizi seyr etdilər. Dənizin suyu təmiz idi.

## Yazmağı öyrənək

Gg gerb göy igid Günel

Ğğ bağ doğma Toğrul

Zz təzə dəniz Ziya

# Ümumiləşdirici təkrar

**1** **Hansı şəkil adının ilk səsi digərlərindən fərqlidir.**

**2** **Bu sxemə hansı şəklin adı uyğun gəlir?**

□□□-□□-□□

a)

b)

c)

**3** **Hər bir hecanın sxemdəki sıra nömrəsini tapın.**

lı



1 2 3

ğun

1 2 3

so



1 2 3 4

**4** **Hansı heyvan necə qorunur? Uyğunluğu müəyyən edin. Fikirlərinizi cümlələrlə ifadə edin.**

a)

b)

c)

ç)

1 iynə

2 buynuz

3 neştər

4 caynaq

**5** **"Ay" hecasına müxtəlif hecalar artırmaqla adlar düzəldin. Adları dəftərinizə yazın.**

Ay → ☐ ☐ ☐

Nümunə

Aynur

**6** **Şəkillərdən istifadə etməklə cümlələri tamamlayıb köçürün.**

1. Dovşan ... yeyir.
2. Ayı ... sevir.
3. ... banan istəyir.

# 4 Nağıllar aləmində

**Söz mücrüsü**

div • fayton • uçan xalça
qu quşu • imarət • padşah

**Nə anladın?**

**1.** Şəkildəki hansı nağıl obrazlarını tanıyırsınız?

**Düşün və cavab ver.**

**2.** Nağıllar, adətən, hansı sözlərlə başlayır?

**3.** Nağıllarda hansı sehrli əşyalar olur?

# Çil toyuq və siçan balaları

**Söz mücrüsü**

dəyirman • kökə • sünbül
odun • üyütmək

- Sünbülü dəyirmana kim aparacaq?
- Biz aparmayacağıq.

Toyuq özü sünbülü apardı və dəni üyütdü. Sincab və Qurbağa ona kömək etdilər. Kökələr hazır olanda siçan balaları yeməyə gəldilər.

- Yox, belə olmaz. Kim işləyibsə, kökələri də o yeyəcək.
Siçanlar baxa-baxa qaldılar.

**Nə anladın?**

**1.** Toyuğa çörək bişirməkdə kim kömək etdi?

**2.** Çörəyi bişirmək üçün Toyuğun gördüyü işləri ardıcıllıqla sadala.

**Düşün və cavab ver.**

**3.** Səncə, Toyuq siçan balalarına çörək verməməklə düz etdi? Nə üçün?

## Oxumağı öyrənək

cücə çörək qaranquş

# Cc Çç Qq

**1** **Sözləri oxuyun və şəkillərlə uyğunlaşdırın.**

1 kərpic 2 çəngəl 3 qaşıq 4 badımcan 5 bıçaq




**2** **Mətni oxuyun.**

Sincab meşədə yaşayır. Ona parklarda da rast gəlmək olar.
Sincab ağacda yuva qurur. Onun uzun quyruğu olur.
Sincab qoza ilə qidalanır.

## Yazmağı öyrənək

Cc cəsarət damcı Cavanşir

Çç çoban alça Çinarə Çingiz

Qq qoçaq qardaş Qasım Qulu

# Tülkü və Leylək

**Söz mücrüsü**

dolça • dimdikləmək
söhbət etmək • süfrə
nuş olsun • dəyərli

Günlərin bir günü Leyləklə Tülkü dost olurlar. Tülkü Leyləyi evinə qonaq çağırır.

– Ye, nuş olsun. Sən mənim ən dəyərli dostumsan.

– Belə də dostluq olar?! Bundan sonra sənlə dostluq etməyəcəyəm.

**Nə anladın?**

1. Tülkünün səhvi nədə idi?
2. Leylək ona necə cavab verdi?

**Düşün və cavab ver.**

3. Səncə, Leylək haqlı idimi? Nə üçün?
4. Sən Leyləyin yerində olsaydın, nə edərdin?

## Oxumağı öyrənək

# Hh Xx



**h**əkim **h**eyva **x**iyar **x**urma

**1** **Sözləri oxuyun. “H” və “x” səslərinin tələffüzündəki fərqə diqqət yetirin.**

himn, bahar, xain, həyat, xala, həsir,

xəmir, şaxta, həmin, xəstə, hasar, hamı

**2** **Mətni oxuyun.**

Tülkü vəhşi heyvandır. Gecə ova çıxır. Hindən toyuq-cücə aparır. Meşədə dovşan ovlayır. Ovunu yuvasına gətirir. Tülkü hiyləgər heyvandır. Onun hiyləgərliyi haqqında çoxlu nağıllar var.

## Yazmağı öyrənək

Hh himn söhbət Həsən Həlimə

Xx xeyir şaxta xala Xəlil

# İTLƏ İNSAN NECƏ DOST OLDU

**Söz mücrüsü**

birlikdə • güclü • hürmək
parçalamaq • dost

1

– Gəl dost olaq.
– Yaxşı, amma özünü canavardan qoru.

2

– Hürmə, ayı eşidər, bizi parçalayar.

3

– Hürmə, insan eşidər, bura gələr.

4

– İnsan hamıdan güclüdür. Məni qoruya bilər. Onunla dost olacağam.

**Nə anladın?**

1. İt nə üçün Canavar və Ayıdan uzaqlaşdı?
2. İt insanla nə üçün dost oldu?
3. Nə üçün İt özünə güclü dost axtarırdı?

**Düşün və cavab ver.**

4. Səncə, İt düzgün qərar verdimi?

# Oxumağı öyrənək

Ff
Jj

fincan fil jaket jonqlyor

**1** **Verilmiş sözləri şəkillərlə uyğunlaşdırın.**

1 telefon 2 jalüz 3 morj 4 fırça 5 əjdaha



a b c ç d

**2** **Mətni oxuyun.**

Fillər böyük olur. Meşədə yaşayır və ot yeyirlər. Fil balaları anaları ilə oynamağı sevir. Bakı zooparkında da fil var. Bazar günü atamla zooparka gedəcəyik.

# Yazmağı öyrənək

F f neft fırça nəfəs Faiq Fəridə

J j jest dirijor jilet jalüz Jalə

# Ümumiləşdirici təkrar

**1** **Buraxılmış hərfləri müəyyənləşdirin: h, yoxsa x?**

...əkim, ...ala, ...iyar, ...imn, ba...ar, ...əyət, əjda...a, şa...ta

**2** **Hər bir hecanın sxemdəki sıra nömrəsini tapın.**

le

1 2 3

qa

1 2 3

man

1 2 3

**3** **Sözləri şəkillərlə uyğunlaşdırın.**

1 dolça 2 sünbül 3 kökə 4 odun 5 süfrə

a



b

c

ç

d

**4** **Şəkil adlarından istifadə etməklə cümlələri oxuyun.**

İtlə ... dost oldu.

Nənə ... bişirirdi.

Bacım masaya ... qoydu.

**5** **Cümlələrə uyğun gələn şəkilləri göstərin.**

1. Sincab canavardan qorxur.
2. Qarğa budaqda oturub.
3. Bağban ağaca su verir.

a

b

c



**6** **Şəkillərin düzgün ardıcıllığını müəyyən edib mətn qurun.**

a) b) c)

# 5 Yaxşı nədir, pis nədir

**Söz mücrüsü**

zəhmətkeş • əməksevər
bəyənmək • cırmaq

## Dərsə hazırlıq

**1. Şeiri oxuyun.**
**Şeirin rəqəmlərlə işarələnmiş hissələrini şəkillərlə uyğunlaşdırın.**

1 Uşaq dedi: – Ay ata!
Sən başa sal görüm bir,
Yaxşı nədir, pis nədir?
Qulaq asın, uşaqlar!
Atanın cavabları
Bizim bu kitabda var.

2 Əgər uşaq sevirsə
Diş tozunu, sabunu,
Demək, yaxşı iş görür,
Hamı bəyənir bunu.

3 Dəftəri, ya kitabı
Cırmısansa, bunu bil,
Hamı sənə deyəcək:
– Bu, yaxşı uşaq deyil.

4 Pintidirsə bir uşaq,
Çirklidirsə üz-gözü,
Əlbəttə, bu, çox pisdir,
Bilir uşaqlar özü.

5 Çoxlu kitab oxuyan,
Zəhmətkeş, əməksevər
Şagirdə baxıb hər kəs:
– Yaxşı uşaqdır, – deyər.

6 Xeyli sevindi uşaq
Oxuyub cavabları.
Dedi: – Oxusun hamı
Bu sayaq kitabları!

*Vladimir Mayakovski*

**Nə anladın?**

**1.** Oğlan atasından nə soruşur?

**2.** Şeirdə hansı hərəkətlər yaxşı, hansılar pis hesab edilir?

**Düşün və cavab ver.**

**3.** Başqa hansı yaxşı və pis xüsusiyyətlər haqqında danışa bilərsiniz?

# ƏQRƏB VƏ QURBAĞA

**Söz mücrüsü**

qurbağa • əqrəb
çay • sancmaq • adət

## Dərsə hazırlıq

1. **Həyatınızda hansı yaxşı hərəkətlərlə rastlaşmısınız?**
2. **Sizə yaxşılıq edən insanlara necə təşəkkür etmisiniz?**

Əqrəb çayı keçmək istəyirdi. Amma üzə bilmirdi.

O, Qurbağaya yaxınlaşdı:

– Qurbağa qardaş, kömək elə, çayı keçim.

Qurbağa Əqrəbə çayı keçməyə kömək etdi.

Çayın ortasına çatanda Əqrəb dedi:

– Qurbağa qardaş, gərək mən səni sancım.

– Ay Əqrəb, axı mən sənə kömək edirəm. Məgər yaxşılığın əvəzini belə çıxarlar?!

Əqrəb:

– Bağışla, Qurbağa qardaş. Mən əqrəbəm, sancmaq mənim adətimdir.

Qurbağa təəssüflə cavab verdi:

– Düzdür, sən əqrəbsən! Ancaq bil ki, mən də qurbağayam. Hərdən suyun altı ilə üzürəm.

Bunu deyib Qurbağa suyun altına girdi.

## Nə anladın?

**3. Mətn və şəkillər əsasında suallara cavab verin.**

1. Əqrəb Qurbağadan nə xahiş etdi?
2. Qurbağa Əqrəbə necə kömək etdi?
3. Əqrəb nə üçün Qurbağanı sancmaq istəyirdi?
4. Qurbağa Əqrəbin hərəkətinə necə münasibət göstərdi?

## Düşün və cavab ver

**4. Sizcə, Qurbağa Əqrəbə başqa nə deyə bilərdi ki, Əqrəb onu sancmasın?**

## Düzgün danışaq və yazaq

**5. Mətnə əsasən cümlələri tamamlayıb oxuyun.**

– Düzdür, sən əqrəb...! Ancaq bil ki, mən də qurbağa... .

**Yadda saxla**

1. Mən şagirdəm.

2. Sən şagirdsən.

3. O, şagirddir.

4. Biz şagirdik.

5. Siz şagirdsiniz.

6. Onlar şagirddirlər.

**6. Cümlələri tamamlayıb köçürün.**

1. Mən cəsur oğlan... .
2. Sən çalışqan şagird... .
3. Bu gün hava isti... .
4. Biz ayrılmaz dostlar... .
5. Siz qoçaq oğlanlar... .
6. Onlar çox mehriban uşaqlar... .

# YAXŞILIQ

**Söz mücrüsü**

batmaq • xilas etmək • dən
hücum etmək • quyu

## Dərsə hazırlıq

**1. Mətni oxuyun. Baş qəhrəmanın davranışlarına diqqət edin.**

Gözəl gün idi. Elxan yaxşı bir iş görmək istəyirdi. O, xəyallara daldı: "Əgər Leyla göldə batsa, onu xilas edərəm".

Elə bu vaxt balaca Leyla ona dedi:
– Elxan, mənimlə oynayarsan?
– Mane olma, Leyla. Özün tək oyna.

Elxan fikirləşdi:
– Əgər canavar nənəmə hücum etsə, mən onu xilas edərəm.

Nənəsi Elxanı səslədi:
– Elxan, bala, toyuqlara dən verərsən?

Elxan mızıldandı:
– Nənə, işim var. Sonra.

Özü isə düşündü: "Əgər Toplan quyuya düşsəydi, onu xilas edərdim.

Toplan quyruğunu bulaya-bulaya ona yaxınlaşdı. Sanki demək istəyirdi:
– Elxan, mənə su ver.

Elxan ona tərəf acıqla baxdı:

– Toplan, get buradan, mane olma.

Elxan anasından soruşdu:

– Anacan, yaxşı iş görmək üçün nə etmək lazımdır?

Anası gülümsəyib dedi:

– Leyla ilə oynaya bilərsən.

Toyuqları yemləyə, Toplana su verə bilərsən.

*V.Oseyevanın hekayəsi əsasında*

## Nə anladın?

**2. Mətndə belə bir obraz yoxdur:**

a) Toplan b) Nənə c) Leyla ç) Məstan

## Düşün və cavab ver

**3. Elxanın anasına verdiyi suala siz necə cavab verərdiniz?**

## Düzgün danışaq və yazaq

**4. Uyğunluğu müəyyən edin.**

1. Elxan, toyuqlara dən verər...? a) ...san
2. Elxan, mənimlə oynayar...? b) ...sən

**Yadda saxla**

**qız + san**
**şagird + sən**

**kitab + dır**
**dəftər + dir**
**soyuq + dur**
**böyük + dür**

**5. Verilmiş sözlərə -dır, -dir, -dur, -dür hissəciklərindən uyğun gələnini artırmaqla cümlə qurun.**

Nümunə: Əqrəb həşəratdır.

əqrəb, canavar, toyuq, Toplan, üzüm, bibər, qartal, Məstan

**6. Fərqləndirilmiş sözlərdə səhvləri düzəldərək cümlələri köçürün.**

Mən Elxanəm. Leyla balacadir. Toplan həyətdədır. Siz kənddəsınız. Biz xoşbəxt ailəyük.

# HAMIDAN QƏŞƏNG

**Söz mücrüsü**

toqquşmaq • seçilmək
pərt olmaq • əhəng
hovuz • dəcəl • lovğa
çırpınmaq • sığallamaq
• əks

## Dərsə hazırlıq

**1. Mətni oxuyun. Obrazların görünüşünə və davranışlarına diqqət edin.**

Həyətimizdə Qaraxal adlı küçük yaşayırdı. O çox mehriban idi. Hamı ilə dostluq edirdi. Təkcə həyətin lovğa pişiyi Ağmurla yola getmirdi.

Bir gün Qaraxal həyətdə oynayırdı. Ora-bura qaçanda Ağmurla toqquşdu. Ağmur hirsləndi:

– Qaçanda ətrafına bax!

Qaraxal cavab verdi:

– Bəs sən niyə baxmırsan? Məgər məni görmürdün?

Ağmur güldü:

– Mən səni görməyə bilərəm. Qapqarasan. Torpaqdan seçilmirsən.

Qaraxal pərt oldu. Yuvasına girdi.

Həyətə əhəng tozu tökülmüşdü. Qaraxal tozun içində oynadı. Onun bədəni ağappaq oldu. O ağardığı üçün çox sevinirdi. Lakin hamı ona təəccüblə baxırdı.

Axşamtərəfi toyuğun həyəcanlı qaqqıltısı eşidildi:

– Kömək edin! Mənim cücəm gölə düşüb!

Doğrudan da, cücələrdən biri suda çırpınırdı. Az qalırdı, boğulsun.

Qaraxal cəld suya atıldı. Cücənin qanadından yapışıb onu quruya çıxardı. Elə bu vaxt Ağmur gülə-gülə dedi:

– Nə oldu, bəs sən ağarmışdın?

Qaraxal suda öz əksinə baxdı. Doğrudan da, o, yenə qapqara idi. Qaraxal pərt olub başını aşağı saldı.

Bayaq suya düşmüş Cücə Qaraxala yaxınlaşdı. Onu sığallayıb dedi:

– Sən qara olsan da, hamıdan qəşəngsən.

*Reyhan Yusifqızı*

## Nə anladın?

**2. Cümlələrin birinci və ikinci hissələrini uyğunlaşdırın.**

1. Ağmur hirsləndi, çünki ... a) cücəsi batırdı.
2. Qaraxal ağ rəngə boyandı, çünki ... b) Qaraxal onu xilas etmişdi.
3. Toyuq həyəcanla qaqqıldadı, çünki ... c) Qaraxalla toqquşmuşdu.
4. Cücə Qaraxalı sığalladı, çünki ... ç) əhəng tozuna batmışdı.

**3. Xarakterlərin hansı obrazlara aid olduğunu müəyyən edin.**

dəcəl | lovğa | xeyirxah

## Düşün və cavab ver

**4. Sizcə, nə üçün Cücə Qaraxala "Hamıdan qəşəngsən" dedi?**

**5. Sən Qaraxalı sakitləşdirmək üçün ona nə deyərdin?**

## Düzgün danışaq və yazaq

**6. Uyğunluğu müəyyən edin.**

1. ... həyətimizdə Qaraxal adlı küçük yaşayırdı. a) mənim
2. Kömək edin! ... cücəm hovuza düşüb. b) onun
3. ... bədəni ağ rəngdə oldu. c) bizim

**Yadda saxla**

| | |
|---|---|
| **Mənim kitabım** | **Bizim kitabımız** |
| **Sənin kitabın** | **Sizin kitabınız** |
| **Onun kitabı** | **Onların kitabı** |

**7. Nöqtələrin yerinə uyğun sözləri əlavə edin.**

mənim, sənin, onun, bizim, sizin

... evim, ... çantası, ... otağınız, ... bayrağımız, ... pozanın

**8. Cümlələri tamamlayıb köçürün.**

Bura bizim həyət...dir. Qaraxal mənim it...dir.
Ağmur həyətin pişiy...dir. Sizin cücələr... Qaraxalı çox istəyir.

# Ümumiləşdirici təkrar

**1. Mətni oxuyun. Mətnə ad qoyun.**

Qarışqa bir buğda tapdı. Buğda çox ağır idi. Onu yerindən tərpədə bilmədi. Yoldaşlarını köməyə çağırdı. Onlar köməkləşib buğdanı asanlıqla yuvalarına apardılar.

**2. Mətnə əsasən şəkilləri ardıcıllıqla sıralayın.**

a)

b)

c)

**3. Mətnə əsasən cümlələri tamamlayın.**

Qarışqa buğdanı yerindən tərpədə bilmədi, çünki ... .

Qarışqa buğdanı yerindən tərpədə bilmədi, ona görə də ... .

**4. Hansı cümlə mətndəki əsas fikri ifadə edir?**

a) İşləməyən dişləməz.

b) Güc birlikdədir.

c) Dost gəlişi bayram olar.

**5. Cümlələri tamamlayıb oxuyun.**

1. Mən Azərbaycan əsgəri... .
2. Sən müəllim... .
3. O, nağıl qəhrəmanı... .
4. Biz dənizkənarı parkda... .
5. Siz çalışqan şagirdlər... .
6. Onlar xeyirxah insanlar... .

**6. Nöqtələrin yerinə uyğun sözləri əlavə edib köçürün.**

| | |
|---|---|
| ... qələmim | ... qələmimiz |
| ... qələmin | ... qələminiz |
| ... qələmi | ... qələmi |

# 6 Şeirlər

**Söz mücrüsü**

təbaşir • evə sarı • xətt
utanmaq • birdən-birə
yavaşca • riyaziyyat • vacib

## Dərsə hazırlıq

1. **"Balaca məktəbli" hekayəsini və eyniadlı şeiri oxuyun.**
2. **Bu iki mətn arasındakı fərqi izah edin.**

### BALACA MƏKTƏBLİ

Dünən balaca bir məktəbli təbaşirlə divarı yaza-yaza evə sarı gedirdi. Birdən arxadan kimsə ona dedi: "Nə gözəl xəttin var!" Məktəbli geri baxanda müəllimini gördü. O, səhvini anladı, utandı və təbaşiri əlindən saldı.

### Balaca məktəbli

bənd
Dünən təbaşir ilə
Yaza-yaza divarı
Balaca bir məktəbli
Gedirdi evə sarı.
misralar

bənd
– Necə gözəl xəttin var,
Biri dedi **arxadan.**
Gördü, müəllimidir
Geri baxanda **oğlan.**
qafiyə

bənd
O tutduğu bu işdən
Utandı birdən-birə.
Təbaşiri əlindən
Yavaşca saldı yerə.

*Simax Şeyda*

## Nə anladın?

3. **Hekayədəki cümlələri şeirdəki bəndlərlə uyğunlaşdırın.**
4. **Şeirin üçüncü bəndində misraları və qafiyə yaradan sözləri müəyyənləşdirin.**

## İncinin cavabı

Məktəbə gedir artıq
Bizim balaca İnci.
Dərslərə səy göstərir,
Birincidir, birinci.

Bir gün masanın üstdə
Düzülmüşdü kitablar.
Mübahisə başladı,
Lovğalıq etdi onlar.

Riyaziyyat öyündü:
"Mən ən vacib kitabam.
Ən çox məni oxuyur,
İnciyə çox lazımam".

"Yox, mən daha vacibəm",-
Dilləndi ana dili.
"Hərfləri bilməsə,
Yaza bilməzdi İnci".

Əllərini yellədi,
Güldü ürəkdən İnci:
– Hər bir kitab vacibdir,
Fərqi varmı neçənci?

*Reyhan Yusifqızı*

### Nə anladın?

**5. Şeirdə neçə bənd var?**
**6. Hər bənddə neçə misra var?**
**7. Bəndlərin hansı misraları qafiyələnir?**
**8. Şeirdə hansı kitablar mübahisə edir?**

**Söz mücrüsü**

səy göstərmək • mübahisə
lovğalıq • öyünmək • ürəkdən

### Düşün və cavab ver

**9. Sizcə, "Həyat bilgisi" kitabı mübahisəyə qoşulsaydı, nə deyərdi?**
**10. İncinin yerinə olsaydınız, siz kitablara nə deyərdiniz?**

# ƏVƏZ İSTƏMƏZ

**Söz mücrüsü**

fit çalmaq • kefi kök
damağı çağ • çəpgöz
süzmək • kökəlmək

## Dərsə hazırlıq

**1. Siz birinə yaxşılıq edəndə əvəz istəyirsinizmi? Nə üçün?**

Kök yeyərək meşəylə
Gedirdi bala Dovşan.
Mahnı da oxuyurdu
Fit çala-çala Dovşan:
“Kefim kök, damağım çağ,
Adımdır Palazqulaq.
Kim deyir ki, çəpgözəm,
İnanmayın bu sözə.
Kök yeyirəm, kökəlim,
Kök yeyirəm, yekəlim.
Kökdə çox vitamin var,
Kim yesə, tez boy atar.
Sevirəm gəzməyi də,
Meşəni süzməyi də.
Atılmağı-düşməyi,
Qar üstdə sürüşməyi”.

Yol üstdə bala Dələ
Dedi: “Bir dayan hələ,
Mahnını sonra oxu.
Sənə sözüm var axı.
Qabaqda canavar var.
Qayıt, işin pis olar”.
Dovşan dedi: “Ay Dələ,
Sağ ol, al, kök ye hələ”.
Dələ ötdü: “Yox”, – deyib, –
Anam mənə söyləyib
Yaxşılıq eləyən kəs
Ona əvəz istəməz”.

*Hikmət Ziya*

## Nə anladın?

**2. Mətndə hansı suallara cavab yoxdur?**

1. Dovşan nə üçün kök yeməyi xoşlayırdı?
2. Dələ meşədə nə edirdi?
3. Dələ Dovşana nə dedi?
4. Dovşan hara gedirdi?
5. Dələ nə üçün kökü götürmədi?

## Düşün və cavab ver

**3. Dələ və Dovşanın xarakteri haqqında fikir bildirin.**

**4. Təsəvvür edin ki, Dələ Dovşana canavar haqqında heç nə demədi. Sizcə, hadisələr necə davam edərdi?**

**5. Şeiri öz sözlərinizlə nəql edin.**

## Düzgün danışaq və yazaq

**6. Şeirdən aşağıdakı cümlələrə uyğun gələn misraları tapın. Söz sırası arasındakı fərqi izah edin.**

1. Bala Dovşan kök yeyərək meşəylə gedirdi.
2. Dovşan fit çala-çala mahnı da oxuyurdu.

**Yadda saxla**

| Yanlış | Doğru |
|---|---|
| **Anam gəldi evə.** | **Anam evə gəldi.** |
| **Uşaq dərdi ağacdan qırmızı alma.** | **Uşaq ağacdan qırmızı alma dərdi.** |

**7. Cümlələri düzgün söz sırası ilə dəftərinizə köçürün.**

Nümunə: Çəkir Aytən rəsm. – Aytən rəsm çəkir.

1. Oynayırlar uşaqlar həyətdə.
2. Səbinə çıxış etdi yaxşı.
3. Axşam gələcəklər qonaqlar bizə.
4. Bayırda yağırdı yağış.
5. Araz bu gün gedir gəzməyə.
6. Qoca verdi nəvəsinə alma.
7. Başladı saat 9-da kino.
8. Yaşayır Bakıda Samir.

# HESAB

**Söz mücrüsü**

hesab • qoz • orta
ləpə • bölünmək

## Dərsə hazırlıq

**1. Üç almanı iki dostun arasında necə bölərsən?**

Bir qoz düşdü ağacdan
Ortasından bölündü.
İki parça ləpəni
Üç qarğaya böl indi.

Düşdü yenə iki qoz,
Hər qoz iki üz oldu.
Qarğalar sevindilər:
“Hesabımız düz oldu”.

Babam dedi: “Uşaqlar,
Qarğanın sayı üçdür,
Altı dənə ləpədən
Hər qarğaya nə düşdü?”

*Zahid Xəlil*

## Nə anladın?

**2. Qarğalar hansı problemlə üzləşmişdilər?**

**3. Qarğalar nə üçün sevindilər?**

**4. Boşluqlara uyğun gələn sözləri seçin və cümlələri dəftərinizə köçürün.**

qoz, ağacın, hesab, ortadan

Qarğalar _____ altında oturmuşdular. Ağacdan bir _____ düşdü.
Qoz _____ bölündü. _____ axırda düz oldu.

## Düşün və cavab ver

**5.** **Şeiri aşağıdakı misalların və şəkillərin ardıcıllığına uyğun nəql edin.**

1. 1 x 2 = 2
2. 2 x 2 = 4
3. 2 + 4 = 6
4. 6 : 3 = ?

**6.** **Şeirin məzmununu elə dəyişin ki, aşağıdakı misallara uyğun olsun.**

1. 3 x 2 = 6
2. 3 x 2 = 6
3. 6 + 6 = 12
4. 12 : 4 = ?

## Düzgün danışaq və yazaq

**7.** **Şeirdə göy rənglə verilmiş cümlədə "nə" sözünü hansı sözlə əvəz etmək olar?**

a) hansı b) nə qədər c) nə üçün

**Yadda saxla**

– **Kim gəldi?**
– **Sənan gəldi.**

– **Neçənci sinifdə oxuyursan?**
– **Üçüncü sinifdə oxuyuram.**

– **Uşaqlar hara gedirlər?**
– **Uşaqlar məktəbə gedirlər.**

– **Aydın axşam nə edəcək?**
– **Aydın axşam istirahət edəcək.**

**8.** **Altından xətt çəkilmiş sözlərə uyğun gələn sual cümlələri qurun. Cümlələri qurarkən sual sözlərindən istifadə edin.**

harada? nə vaxt? kim? nə? necə? nə edir?

Nümunə: Xəyalə kinoya gedirdi. – Kim kinoya gedirdi?

1. Sabah hava yaxşı olacaq.
2. Gülgün Türkiyədə yaşayır.
3. Rəşad uşaqlarla oynayır.
4. Bağban ağac əkir.
5. İradəni atası çağırdı.
6. Ağacda qırmızı almalar var idi.

# YAŞAR SƏNƏT SEÇİR

**Söz mücrüsü**

sənət • sərhəd • köhlən
keşikdə dayanmaq • pətək
kişnəmək • sürücü
yəqin ki • xarrat • avara

## Dərsə hazırlıq

**1. Nümunəyə əsasən cümlələri tamamlayın.**

*Aşpaz xörək bişirir*

Dərzi ... . Polis ... . Müəllim ... . Həkim ... .

Kiçik Yaşar
Hər gün tezdən oyanır.
Sərhəd qurur,
Keşiyində dayanır.
Gah atılır
Əlindəki avtomat,
Gah kişnəyir
Altındakı köhlən at.
Sərhədçidir,
Yaşıl papaq başında.
Sərhədçidir
Yaşar düz beş yaşında.

Neçə gündür
Maşın sürür: du-du-du.
Yəqin ki, bu,
Təzəcə bir arzudu.
Maşınında
Keçir uzaq yolları,
Qovur qaçan
Ağacları, kolları.
Bu sürücü
Yaxşı sürür maşını,
Bitirməyib
Hələ altı yaşını.

Yenə nədir,
Səs-küy qopub həyətdə.
Elə bil ki
Arılardır pətəkdə:
– Qapıya vur!!!
– Vurmadın bu topu da!
– Necə vurum?
Yaşar durub qapıda.
Qapıçının
Cəmi yeddi yaşı var.
Bu gün onun
Həyətdə çox işi var.

– Ata, ata!
Yaşar söküb saatı...
– Ata, ata!
Görürsən bu xarratı?!
Sənət seçir,
Kömək edin Yaşara.
Bir iş tapsın,
Yoxsa qalar avara.

*Teymur Elçin*

## Nə anladın?

**2. Yaşar hansı sənətlərlə maraqlanır?**

**3. Şeirə əsasən cümlələri tamamlayın.**

1. Yaşar ... yaşında sərhədçi olmaq istəyirdi.
2. Yaşar altı yaşında ... olmaq istəyirdi.
3. Yaşar ... yaşında futbolçu olmaq istəyirdi.

**4. Şeirdəki bəndlərə görə cümlələrin ardıcıllığını müəyyənləşdirin.**

1. Yaşar qapıçıdır.
2. Yaşar sərhəd qurub keşiyində durur.
3. Yaşar maşın sürür.
4. Yaşar saat düzəldir.

**5. Sevdiyiniz sənət haqqında təqdimat hazırlayın.**

## Düzgün danışaq və yazaq

**6. Sözlərə uyğun hissəciklər artırmaqla misraları tamamlayın.**

Sərhədçidir,
Yaşıl papaq başın... .
Sərhədçidir
Yaşar düz beş yaşın... .

Bu sürücü
Yaxşı sürür maşın... ,
Bitirməyib
Hələ altı yaşın... .

**7. Sözlərin sonuna uyğun gələn hissəcikləri artırmaqla cümlələri dəftərinizə yazın.**

1. Ana televizor... (-a, -dan) baxır.
2. Davud kitab... (-dan, -a) oxuyur.
3. Əhməd dayı park... (-a, -da) gəzir.
4. Uşaqlar həyət... (-dən, -də) oynayırlar.
5. Elçin məktəb... (-dən, -i) ev... (-ə, -lə) tez gəldi.
6. Selen qələm... (-i, -dən) çanta... (-dan, -ya) götürdü.

**Yadda saxla**

**İsa ağacdan sallanır.**

**Lalə paltonu geyinir.**

**Lalə stulda oturub.**

**İsa televizora baxır.**

**1. "Ləpə" sözünü şəkildəki mənalarına uyğun olaraq cümlələrdə işlədin.**

**2. Cümlələri verilmiş şəkillərlə uyğunlaşdırın və nöqtələrin yerinə uyğun hissəciklər əlavə edin.**

1. Aynur binalar... baxırdı.
2. Uşaqlar meydança... futbol oynayırdılar.
3. Matros gəmi... əl elədi.

**3. Hansı cümlədə söz sırası pozulmuşdur?**

a) Sabir dərslərini tez bitirdi.
b) Mən, yəqin ki, gec gələcəyəm.
c) Ülkər olmaq istəyir müəllim.

**4. Sual sözlərindən istifadə edərək sual cümlələri qurun.**

Nümunə: Orxan Bakıda yaşayır. *(kim? harada? nə edir?)*
*Kim Bakıda yaşayır?*
*Orxan harada yaşayır?*
*Orxan Bakıda nə edir?*

1. Səbinə bağçada gəzişir. *(kim? harada? nə edir?)*
2. Axşam yağış yağdı. *(nə vaxt? nə? nə etdi?)*
3. Elcan şirin meyvə xoşlayır. *(kim? necə? nə? nə edir?)*
4. Xalid iki dəftər aldı. *(kim? neçə? nə? nə etdi?)*

# 7 Təbiətin sirləri

## Dərsə hazırlıq

**1. Tapmacaların cavabını tapın və şəkildə göstərin.**

**Söz mücrüsü**

sirr • ləçək • xallı • zər • məskən
sümük • caynaq • süzmək • çil
xortum • buynuz • guşə • ala

**1**

Sümükdən paltarım var,
Gün düşəndə parıldar.
Asta-asta gəzərəm,
Suya düşsəm, üzərəm.

**2**

Dincəlməklə yox aram,
Çiçəklərə qonaram.
Mən onların dostuyam,
Bal düzəldən ustayam.

**3**

Qonar gülə-çiçəyə,
Hər yarpağa, ləçəyə.
Qanadı xallı, zər-zər,
Məskənidir çəmənlər.

**4**

Tikandan paltarım var,
Hər kim toxunsa, batar.
İlan da qorxur məndən,
Deyin görüm, nəyəm mən?

**5**

Tıq-tıq salıb meşədə,
Yaşaram bir guşədə,
Ala, çildir qanadım,
“Meşə həkimi” adım.

**6**

Quşların şahıdır özü,
Var caynağı, iti gözü.
Göydə süzər buludlartək,
Hansı quşdur, tapın görək?

**Düşün və cavab ver.**

**2.** Tapmacalardakı hansı sözlər cavabı tapmağa kömək etdi?

**3.** Tapmacaların cavablarını dəftərinizə yazın və aşağıdakı kimi qruplaşdırın:

- Heyvanlar: ...
- Quşlar: ...
- Həşəratlar: ...

# DÖRD ARZU

## Dərsə hazırlıq

**Söz mücrüsü**

fəsil • qartopu • arzu • alabəzək
xizək • biçmək • mayallaq aşmaq

1. **İlin hansı fəsilləri var?**
2. **Hansı fəsli daha çox sevirsiniz? Seçiminizi izah edin.**

Samir uşaqlarla qartopu oynadı, xizəklə sürüşdü. Sevincək evə gəlib atasına dedi:

– Atacan, qış nə yaxşı fəsildir, kaş həmişə qış olaydı.

Atası ona bir dəftərçə verib dedi:

– Al bu dəftəri. Qoy sənin arzular dəftərin olsun. İndi dediyini bura yaz.

Yaz gəldi. Samir çəmənlikdə alabəzək kəpənəklərin dalınca yüyürdü, gül dərdi. Atasının yanına qaçıb dedi:

– Atacan, yaz nə gözəl fəsildir. Kaş həmişə yaz olaydı.

Atası dedi:

– Get bu arzunu da arzular dəftərinə yaz.

Yay oldu. Samir atası ilə birlikdə ot biçməyə getdi. Onun bütün günü maraqlı keçdi. Gah balıq tutur, gah meyvə yığır, gah da otun üzərində mayallaq aşırdı. Axşam atasına dedi:

– Bu gün doyunca oynamışam. Arzu edirəm ki, yay heç qurtarmasın.

– Yaxşı, bu arzunu da dəftərinə yaz.

Samir arzusunu dəftərə yazdı.

Payız gəldi. Bağın dadlı meyvələrini – qırmızı almaları və sarı armudları yığmağa başladılar. Samir şən halda atasına dedi:

– Ata, payız ilin ən yaxşı fəslidir.

Atası Samirə arzular dəftərinə baxmağı tapşırdı:

– Oğlum, sən bu sözü həm yaz, həm yay, həm də qış haqqında demisən. İndi bil ki, ilin bütün fəsilləri gözəldir.

*Konstantin Uşinski*

## Nə anladın?

**3. Mətndə hadisələrin baş verdiyi zamana görə fəsilləri ardıcıllıqla sadalayın.**

**4. Mətni plan əsasında nəql edin.**

## Düşün və cavab ver

**5. Mətnin müəllifi oxucuya hansı fikri çatdırmaq istəyir?**

## Düzgün danışaq və yazaq

**6. Mətndə hansı rənglə verilmiş "yaz" sözü hərəkət bildirir?**

**7. Nöqtələrin yerinə uyğun gələn sözləri artırmaqla cümlələri oxuyun.**

indi | sabah | dünən

1. ... Samir arzusunu dəftərə yazdı.
2. ... Samir arzusunu dəftərə yazır.
3. ... Samir arzusunu dəftərə yazacaq.

**8. Hərəkət bildirən sözləri müxtəlif zamanlarda işlədin.**

Nümunə: yığmaq – yığır, yığdı, yığacaq

oynamaq, sürüşmək, gəlmək, demək, yüyürmək, dərmək, getmək, tutmaq

**Yadda saxla**

**Keçmiş zaman**

qaç**dı** gəl**di** dur**du** gül**dü**

**nə etdi?**

**İndiki zaman**

qaç**ır** gəl**ir** dur**ur** gül**ür**

**nə edir?**

**Gələcək zaman**

qaç**acaq** gəl**əcək** dur**acaq** gül**əcək**

**nə edəcək?**

# GÖBƏLƏK

## Dərsə hazırlıq

1. **Göbələk haqqında nə bilirsiniz?**
2. **Göbələyə hansı fəsillərdə daha çox rast gəlmək olar?**

Bir dəfə Kəpənək meşədə uçarkən yağış yağmağa başladı. O, yağışdan gizlənmək üçün yer axtarırdı. Birdən balaca bir göbələk gördü. Tez ona sarı uçdu və göbələyin papağı altında gizləndi.

Bu vaxt bir Siçan qaçıb gəldi. O dedi:

– İcazə ver, mən də göbələyin altına girim.

– Səni bura necə buraxım? Gör heç yer var?

– Lap kiçicik yer də mənə bəs edər.

– Yaxşı, gəl.

Göbələyin yanında Sərçə atılıb-düşməyə başladı. Ağlaya-ağlaya dedi:

– Qanadlarım islanıb, uça bilmirəm. İcazə verin, mən də göbələyin altına girim, Yağışın kəsməsini gözləyim.

– Burda yer yoxdur axı...

– Nə olar, mənə də yer eləyin.

– Yaxşı. Sən də gəl.

Onlar bir az sıxlaşdılar. Sərçəyə də yer tapıldı.

Elə bu vaxt haradansa Dovşan qaçıb gəldi. Göbələyin yanında dayanıb dedi:

– Tülkü məni qovur. Yer verin, gizlənim.

Heyvanların Dovşana yazığı gəldi, onu da göbələyin altına buraxdılar. Elə bu an Tülkü gəlib göbələyə çatdı.

– Dovşanı kim görüb? – Tülkü soruşdu.

– Biz görməmişik, – heyvanlar dedilər.

Tülkü quyruğunu bulayaraq qaçıb getdi.

Az sonra yağış dayandı. Günəş buludların arasından boylanıb gülümsədi. Heyvanlar sevinə-sevinə göbələyin altından çıxdılar. Kəpənək isə fikrə getdi:

– Axı bu necə olur? Mən özümə göbələyin altında güclə yer tapmışdım. İndi isə göbələyin altından dörd heyvan çıxdı.

*Vladimir Suteyev*

## Nə anladın?

**3. Mətndəki hadisələrin ardıcıllığına görə şəkillərdəki canlıları sıra ilə adlandır.**



## Düşün və cavab ver

**4. Mətnin sonunda Kəpənəyin sualına siz necə cavab verərdiniz?**

## Düzgün danışaq və yazaq

**5. Mətndə göy rənglə verilmiş "O" sözü "kəpənək" sözünü əvəz edib. Bəs qırmızı rənglə verilmiş "O" sözü hansı sözü əvəz edib?**

**Yadda saxla**

| | | | | |
|---|---|---|---|---|
| **Mən** | yazıram | gəlirəm | uçuram | görürəm |
| **Sən** | yazırsan | gəlirsən | uçursan | görürsən |
| **O** | yazır | gəlir | uçur | görür |
| **Biz** | yazırıq | gəlirik | uçuruq | görürük |
| **Siz** | yazırsınız | gəlirsiniz | uçursunuz | görürsünüz |
| **Onlar** | yazırlar | gəlirlər | uçurlar | görürlər |

**6. Hərəkət bildirən sözləri tamamlamaqla cümlələri oxuyun.**

1. Sən yaxşı üzür... .
2. Biz məktəbə gedir... .
3. Onlar dərsə hazırlaşır... .
4. Mən cizgi filminə baxır... .
5. Siz təqdimat edir... .
6. Biz 3-cü mərtəbədə yaşayır... .

# GÖYDƏN QOZ YAĞIR

## Dərsə hazırlıq

**1. Mətnin başlığını oxuyun və şəkillərə baxın. Sizcə, bu mətndə nədən danışılır?**

Dovşan daşın üstündə oturmuşdu. Birdən başına bir qoz düşdü.

Dovşan Ayının yanına gəlib dedi:

– Yastıdaban, xəbərin var, göydən qoz yağır?

– Ola bilməz!

– Doğru sözümdür. Biri də mənim başıma düşdü.

Ayı bu xəbəri Tülküyə çatdırdı:

– Tülkü lələ, ehtiyatlı ol! Dovşan deyir, göydən qoz yağır.

– Sən nə danışırsan?

– Dovşan belə deyir.

Tülkü tez özünü Sincabın yanına yetirdi:

– Ay Sincab, eşitmisən, göydən qoz yağır?

– Doğrudan?

– Hə, biri də Dovşanın başına düşüb.

Sincab budaqdan-budağa tullanaraq qışqırmağa başladı:

– Göydən qoz yağır. Göydən qoz yağır...

Birdən bir Qarğaya rast gəldi:

– Qarğa qardaş, deyirlər, göydən qoz yağır. Biri də Dovşanın başına düşüb.

Qarğa dedi:

– Eh, o qozu mən atdım ki, daşa dəyib sınsın, ləpəsini yeyim. O da Dovşanın başına düşdü. Qoz sınmadı, ancaq, deyəsən, Dovşanın başı xarab oldu.

*Rafiq İsmayılov*

## Nə anladın?

**2. Əsərdəki obrazlar arasında belə bir heyvan yoxdur.**



**3. Hadisələri düzgün ardıcıllıqla sadalayın.**

a) Dovşan Ayıya dedi ki, göydən qoz yağır.
b) Tülkü xəbəri Sincaba çatdırdı.
c) Qarğa dedi ki, qozu o özü atıb.
ç) Dovşanın başına göydən qoz düşdü.
d) Sincab xəbəri meşəyə yaydı.
e) Ayı xəbəri Tülküyə çatdırdı.

## Düşün və cavab ver

**4. Nöqtələrin yerinə uyğun gələn sözləri işlətməklə cümlələri oxuyun.**

o | mən | sən

1. ... nə danışırsan?
2. O qozu ... atdım.
3. ..., Dovşanın başına düşdü.

**Yadda saxla**

| | Keçmiş zaman | İndiki zaman | Gələcək zaman |
|---|---|---|---|
| Mən | bax**dı**m | bax**ır**am | bax**acağ**am |
| Sən | bax**dı**n | bax**ır**san | bax**acaq**san |
| O | bax**dı** | bax**ır** | bax**acaq** |
| Biz | bax**dı**q | bax**ır**ıq | bax**acağ**ıq |
| Siz | bax**dı**nız | bax**ır**sınız | bax**acaq**sınız |
| Onlar | bax**dı**lar | bax**ır**lar | bax**acaq**lar |

**5. Göy rəngli sözlərə uyğun hissəciklər artırmaqla cümlələri oxuyun.**

1. Keçən il biz Novruz bayramını kənddə qarşıla... .
2. Hər gün idman etməsəniz, tez-tez xəstələn... .
3. Mən hər gün itimlə parkda gəz... .
4. Onlar dünən yarışda qalib gəl... .
5. Sən sabah İstanbula yola düş... .
6. O, həmişə dərslərinə ciddi hazırlaş... .

**1. Göy rəngli sözlərə uyğun hissəciklər artırmaqla mətni oxuyun.**

## ŞİR VƏ SİÇAN

Meşədə bir Şir yatmışdı. Balaca bir Siçan gəlib onun üstünə çıx... . Şir oyanıb Siçanı tut... . Siçan ona yalvarıb dedi:

– Məni burax. Vaxt gələcək, mənim sənə köməyim dəy... .

Şir Siçanın sözlərinə gül... :

– Sən bapbalaca... . Mənə necə kömək edəcək...?

O, Siçana dəyməyib burax... .

Bir gün Şir tələyə düş... . Siçan özünü ona yetir... . İti dişləri ilə tələnin iplərini gəmirib qır... . Şir Siçana dedi:

– O vaxt mən sənin sözlərinə gül... . Sən demə, siçanın da şirə yaxşılığı dəyərmiş.

**2. Doğru, yoxsa yanlış?**

a) Siçan yatmış Şirin üstünə çıxmışdı.

b) Şir bilirdi ki, Siçan nə vaxtsa onu xilas edəcək.

c) Ovçular Şiri yaralamışdılar.

ç) Siçan Şiri xilas etdi.

**3. Zamana uyğun olaraq cümlələri tamamlayıb oxuyun.**

| | |
|---|---|
| **Keçmiş zaman** | 1. Toğrul mağazadan maraqlı kitab al... .<br>2. Biz bazar günü piknikə get... .<br>3. Nəvələr babalarına kömək et... . |
| **İndiki zaman** | 1. Mənim anam xəstəxanada işlə... .<br>2. Siz çox maraqlı danış... .<br>3. Mən dostumla internet vasitəsilə əlaqə saxla... . |
| **Gələcək zaman** | 1. Mən bu şeiri əzbər de... .<br>2. Sən bu kitabı nə vaxt oxu... ?<br>3. Biz dərsdən sonra sizə kömək etməyə gəl... . |

# 8 Sağlam həyat

## Dərsə hazırlıq

1. **Sağlam olmaq üçün nə etmək lazımdır?**
2. **Hər bir mətni oxuduqca bu suala bir daha cavab verin.**

**Söz mücrüsü**

hünər • vücud • gigiyena
menyu • məhsul • nəsil • hakim
un • qatıq • qarpız • yemiş

## TƏMİZLİK

Səhər durunca
Əlimdə fırça
Yudum dişimi,
Bildim işimi.

İnanmırsan, bax,
Dişim ağappaq,
Üstüm tərtəmiz,
Bax beləyik biz.

*Abdulla Şaiq*

## İDMAN NƏĞMƏSİ

Biz gənclər, biz məktəblilər,
Hər işdə göstərək hünər.
İdman edək səhər, axşam,
Vücudumuz olsun sağlam.

Qoy güclənsin gənc nəslimiz,
Gələcəyə hakimik biz.
Sağlam bilik, sağlam bədən
Olsa, çiçəklənər vətən.

*Abdulla Şaiq*

# Günlük menyu



## Nə anladın?

**3.** **Söz cütləri arasındakı məna fərqini izah edin. Nöqtələrin yerinə hansı sözlər ola bilər?**

ağ → ağappaq
təmiz → tərtəmiz
... → qapqara
sarı → ...

**4.** **Oxuduğunuz mətnləri məzmununa görə sağlamlığın üç əsas şərti ilə uyğunlaşdırın.**

| | |
|---|---|
| 1. Təmizlik | a. idman |
| 2. İdman nəğməsi | b. sağlam qida |
| 3. Günlük menyu | c. gigiyena |

## Düşün və cavab ver

**5.** **Siz sağlam həyat şərtlərinə necə əməl edirsiniz?**

# MƏSTAN VƏ DİŞLƏR PƏRİSİ

## Dərsə hazırlıq

**1. Dişlərinizə necə qulluq edirsiniz?**
**2. Heç dişiniz laxlayıbmı? Bu zaman nə etmisiniz?**

**Söz mücrüsü**

süd dişi • sığallamaq
şirniyyat • laxlamaq
dişin kökü • yastıq • tanış

Pişik balası Məstan şirniyyatı çox sevirdi. Bir gün peçenye yeyəndə dişlərindən biri laxladı. O, həyəcanla anasını çağırdı:

– Anacan, mənim dişim düşür! Mən dişsiz necə yaşayacağam? Necə güləcəyəm? Yəqin, məni məktəbə də qəbul etməzlər. Axı dişsiz pişik kimə lazımdır?!

Anası onun başını sığalladı:

– Mənim qəşəng balam, narahat olma. Sənin süd dişin düşür, çünki onlar zəif olur. Süd dişlərinin əvəzinə daha möhkəm və köklü dişlər çıxacaq.

Məstan laxlayan dişini göstərib dedi:

– Ana, bəs bu nə vaxt düşəcək? Yemək yeyəndə məni narahat edir.

Məstan kədərli-kədərli stolun üstündəki peçenyelərə baxdı:

– Heç peçenyeni dişləyə də bilmirəm.

Anası gülümsədi:

– Məncə, o, Dişlər pərisini gözləyir.

Məstan təəccübləndi:

– Dişlər pərisi? O kimdir?

– Dişin düşəndə onu yastığının altına qoyub yatarsan. Gecə Dişlər pərisi onu aparmağa gələcək. O, süd dişlərini götürür, əvəzində isə hədiyyə qoyur.

Məstan balaca pəncələrini bir-birinə vurub sevindi:

– Ura! Dişlər pərisi mənə hədiyyə gətirəcək.

Məstan sakitləşib oynamağa getdi. Amma Dişlər pərisi heç yadından çıxmırdı. Tezliklə onu görmək istəyirdi.

Birazdan Məstan anasına yaxınlaşdı:

– Anacan, necə edim ki, laxlayan dişim tez düşsün?

Ana cavab verdi:

– Məstanım, laxlayan dişə əl vurmaq olmaz. Bunun üçün diş həkiminə getmək lazımdır. Ən doğru məsləhəti bizə həkim verəcək.

Məstan ürəklə cavab verdi:

– Anacan, gedək. Mən qorxmuram. Televizorda görmüşəm. Həkim dişə dərman sürtür, ona görə də ağrı hiss etmirsən.

Anası gülümsədi:

– Sən mənim ağıllı və cəsur balamsan.

Növbəti gün anası Məstanı diş həkiminə apardı. Həkim onun laxlayan dişini çıxardı. Məstan həkimə dedi:

– Olar mən dişimi özümlə aparım? Onu yastığımın altına qoyacağam. Dişlər pərisi onu aparmağa gələcək.

Həkim gülümsədi:

– Əlbəttə, apara bilərsən. Dişlər pərisi mənim köhnə tanışımdır. Süd dişlərini toplayır. Dişlərinə qulluq edənləri də çox sevir.

Məstan soruşdu:

– Dişlərimə necə qulluq edə bilərəm?

Həkim dedi:

– Dişlərini səhər və axşam yaxşı-yaxşı fırçala. Çox şirniyyat yemə, çünki dişlərə ziyandır.

Artıq axşam idi. Məstan yatmazdan əvvəl dişini yastığın altına qoydu. Gözlərini yumdu və gözləməyə başladı. Tezliklə yuxuya getdi. Səhər gözlərini açan kimi Dişlər pərisini xatırladı. Əlini yavaş-yavaş yastığının altına uzatdı. Sevinclə qışqırdı:

– Ura! Dişlər pərisi mənə hədiyyə gətirib.

O, hədiyyə qutusunu açdı. Qutuda gözəl bir diş fırçası var idi.

*Anna Kupırina*

## Nə anladın?

**3. Mətndəki hadisələrin ardıcıllığını müəyyən edib danışın.**

a) Dişlər pərisi Məstana hədiyyə gətirdi.
b) Anası Məstanı diş həkiminə apardı.
c) Məstanın dişi laxladı.
ç) Diş həkimi Məstana məsləhət verdi.

## Düşün və cavab ver

**4. Mətndə təsvir olunmuş hansı hadisələr həqiqətə uyğundur?**

1. Pişiklər danışa bilir. a) uyğundur b) uyğun deyil
2. Dişləri hər gün fırçalamaq lazımdır. a) uyğundur b) uyğun deyil
3. Çox şirniyyat yeyəndə dişlər tez xarab olur. a) uyğundur b) uyğun deyil
4. Dişlər pərisi uşaqlara hədiyyə gətirir. a) uyğundur b) uyğun deyil
5. Süd dişləri zəif olur. a) uyğundur b) uyğun deyil

## Düzgün danışaq və yazaq

**5. Nöqtələrin yerinə uyğun sözü seçin.**

Məstan yatmazdan ... (kimi, əvvəl, ilə) dişini yastığın altına qoydu.

**6. Cümlələri tamamlayıb oxuyun.**

İstifadə üçün sözlər: ilə, sonra, üçün, əvvəl

1. Yeməkdən ... əllərinizi yuyun.
2. O, anası ... söhbət etdi.
3. Ata qızı ... hədiyyə aldı.
4. Yağışdan ... gün çıxdı.

**7. Nöqtələrin yerinə uyğun hissəciklər artırmaqla cümlələri oxuyun.**

1. Sən... **üçün** səhər yeməyi hazırlamışam.
2. Tural... **görə** narahat idim.
3. Sən... **ötrü** tez gəlmişəm.
4. Mən də siz... **kimi** həkim olacağam.
5. Nailə... **başqa** hamı burada idi.

**Yadda saxla**

- Səhərə kimi
- Dağa tərəf
- Düşmənə qarşı
- Dosta görə
- Hadisədən sonra
- Dərsdən əvvəl
- Arifdən başqa

**Müqayisə et**

- Baba
- Mənim
- Bizim
- Sizin
- Onun

**üçün**
**kimi**

# GÜN REJİMİ

**Söz mücrüsü**

cədvəl • tərtib etmək
qeyd etmək • plan
asudə vaxt • gigiyena

## Dərsə hazırlıq

**1. Gün ərzində görəcəyiniz işləri əvvəlcədən planlaşdırırsınızmı? Bu gün axşama hansı işləri planlaşdırmısınız?**

Ad: Sara
Soyad: Rəhimli

Tarix: 22 oktyabr Gün: Cümə

| Vaxt | Görüləcək işlər |
|---|---|
| Səhər | Yuxudan oyanmaq |
| | İdman etmək, yuyunmaq |
| | Səhər yeməyi, məktəbə hazırlıq |
| | Məktəbə getmək |
| 8:00-1:00 | Dərs vaxtı |
| Günorta | Evə qayıtmaq |
| | Yuyunmaq, paltarı dəyişmək |
| | Nahar |
| | Rəsm dərnəyi |
| 5:00-6:00 | Ev tapşırıqlarını yerinə yetirmək |
| Axşam | Asudə vaxt (Dostlarımla oynamaq) |
| | Şam yeməyi |
| | Asudə vaxt (Televizora baxmaq) |
| Gecə | Yatmaq vaxtı |

## Nə anladın?

**2. Cədvələ baxaraq suallara cavab verin.**

1. Sara işlərini hansı tarix üçün planlaşdırıb?
2. Sara günün hansı hissəsini məktəbdə keçirir?
3. Sara hansı dərnəyə gedir?
4. Sara asudə vaxtlarında nə ilə məşğul olur?

**3.** **Sara haqqında hansı fikirləri söyləmək olar?**

a) İşlərini planlaşdırır.
b) Asudə vaxtı qalmır.
c) Bağçaya gedir.
ç) Rəsm çəkməyi xoşlayır.

## Düşün və cavab ver

**4.** **Suallara cavab verməklə öz gün rejiminiz haqqında danışın.**

1. Səhər saat neçədə oyanırsınız? Günün bu vaxtında, adətən, nə edirsiniz?
2. Məktəbdən saat neçədə qayıdırsınız?
3. Məktəbdən sonra nə ilə məşğul olursunuz?
4. Asudə vaxtınızı necə keçirirsiniz?
5. Axşam saatlarında nə edirsiniz?

**5.** **Öz gün rejiminizi Saranın gün rejimi ilə müqayisə edin. Oxşar və fərqli məqamları qeyd edin.**

**6.** **Saranın gün rejiminə əsasən hər təsvirə aid bir cümlə yazın.**

Nümunə:
1. Sara asudə vaxtlarında dostu ilə oynayır.

# MAUQLİ

## Dərsə hazırlıq

1. **İdmanın faydaları haqqında danışın.**
2. **Sizcə, idmançıların üstünlüyü nədədir?**

**Söz mücrüsü**

xışıltı • kol • mağara • məşq etmək • güləşmək • müddət fənd • məsafə • üstəlik

**Ata Canavar dişlərində tutduğu körpə uşaqla mağaraya girdi. Ana Canavar və canavar balaları körpənin ətrafına toplaşdılar.** Ata Canavar dedi:

– Şirxanın əlindən xilas etmişəm. Qəddar pələng indi də insanlara hücum edir.

Beləliklə, canavar ailəsi insan balasını öz mağaralarına qəbul etdi. Ona Mauqli adı verdilər.

Günlər, aylar keçir, Mauqli də günü-gündən böyüyürdü. Ata Canavar bilirdi ki, Şirxan öz ovunu unutmayacaq. Gec-tez Mauqlinin arxasınca gələcək. Ona görə də Mauqlini bu döyüşə hazırlamaq lazım idi.

Aydın məsələ idi ki, Şirxan çox sürətlə qaçır. Deməli, Mauqli də düşməni kimi sürətli olmalıdır. Ata Canavar hər gün Mauqli ilə məşq edirdi. Canavar balaları ilə Mauqli arasında qaçış yarışı keçirirdi. Artıq Mauqli elə sürətlə qaçırdı ki, canavar balaları güclə ona çatırdılar.

Ata Canavar Mauqliyə dedi:

– Əlbəttə, sən çox sürətlə qaçırsan. Amma bu, Şirxana qalib gəlmək üçün azdır. Bilirsən ki, pələngin pəncəsindən qurtulmaq çətin məsələdir. Gərək onun kimi güləşə biləsən. Bu işdə bizə qonur ayı Balu kömək edə bilər.

Tezliklə Balu Mauqli ilə dərsə başladı. Qısa müddətdə güləşin bütün fəndlərini ona öyrətdi.

Balu Mauqli ilə sağollaşanda dedi:

– Sən, həqiqətən də, çox güclüsən. Amma unutma ki, sənin düşmənin Şirxandır. O, bir pələngdir, ağacdan ağaca asanlıqla tullanır. Gərək sən də uzun məsafəyə tullanmağı bacarasan. Yoxsa Şirxana qalib gəlmək çətin məsələdir. Sənə bu işdə qara bəbir Bahirə kömək edə bilər.

Bir neçə gündən sonra Bahirə Mauqli ilə məşqlərə başladı. O, ağacdan ağaca tullanır, Mauqli də onun hərəkətlərini təkrarlayırdı. Düzdür, Mauqli tez-tez ağacdan yıxılıb əzilirdi. Amma sonunda uzağa tullanmağı da öyrəndi.

Bahirə Mauqli ilə sağollaşanda dedi:

– Yaxşı olardı ki, üzməyi də öyrənəsən. Şirxan çox gözəl üzür. Birdən sənə suda hücum etdi?! Bu işdə sənə Kaa kömək edə bilər. Düzdür, o çox hiylənər ilandır. Amma Şirxanla düşməndir. Bilsə ki, onunla döyüşəcəksən, sənə kömək edər.

Həqiqətən də, Kaa Şirxanın adını eşidən kimi qəzəblə fısıldadı:

– Şirxana qalib gəlmək üçün sənə üzməyi öyrədərəm. Sən insan balasısan, tez öyrənərsən.

Artıq Mauqli Şirxanla döyüşə hazır idi. Onun kimi sürətlə qaçır, güləşir, üzür, hətta ağacdan ağaca tullana bilirdi. Üstəlik, insan balası olan Mauqli çox ağıllı idi. Çətin ki, bundan sonra Şirxan Mauqliyə yaxın gəlsin.

*Redyard Kiplinq*

## Nə anladın?

**1.** **Hər bir şəkil üzrə mətnin uyğun hissələrini danışın.**

**2.** **Mətnə əsasən cümlələri tamamlayıb oxuyun.**

Nümunə:

Ata Canavar Mauqliyə sürətlə qaçmağı öyrətdi.

1) Balu ...
2) Bahirə ...
3) Kaa ...

## Düşün və cavab ver

**3.** **Sizcə, nə üçün heyvanlar Mauqliyə kömək etdilər?**

**4.** **Siz Mauqliyə hansı idman növünün sirlərini öyrədərdiniz? Nə üçün məhz bu idman növünü seçdiniz? Seçiminizi əsaslandırın.**

**5.** **Mauqlinin Şirxanla döyüşünü təxəyyülünüzə uyğun təsvir edin.**

**6.** **Nöqtələrin yerinə uyğun hissəciklər artırmaqla cümlələri tamamlayın.**

1) Ata Canavar Mauqli... Şirxanın əlindən xilas etmişdi.
2) Hamı bilirdi ki, Şirxan Mauqli... arxasınca gələcək.
3) Heyvanlar Mauqli... cəngəlliyin sirlərini öyrətdilər.
4) Artıq Şirxan Mauqli... qorxurdu.

**1.** **Hər şəklə aid bir cümlə yazın.**

**2.** **Nöqtələrin yerinə uyğun sözləri artırmaqla cümlələri oxuyun.**

İstifadə üçün sözlər: qeyd etmək, tərtib etmək, məşq etmək

1. Cəmilə gün rejimini yazmaq üçün cədvəl ... .
2. Toğrul qalib gəlmək üçün hər gün ... .
3. Səidə oxuduğu məlumatları dəftərinə ... .

**3.** **Hərəkət bildirən sözləri uyğun zamanda işlətməklə cümlələri köçürün.**

1. Dünən nənəm bizə (gəlmək) ... .
2. Hazırda yağış (yağmaq) ... .
3. Sabah mən muzeyə (getmək) ... .

**4.** **Cümlələri tamamlayıb köçürün.**

1. Bu hadisədən ... (başqa, sonra, üçün) hamı sakitləşmişdi.
2. Tülkü meşəyə ... (ilə, başqa, tərəf) qaçdı.
3. Səbinə ... (görə, ötrü, üçün) kitab almışam.

**5.** **Nöqtələrin yerinə uyğun sözlər yazın.**

| | | | |
|---|---|---|---|
| ağ | → ağappaq | ... | → gömgöy |
| ... | → qıpqırmızı | ... | → bapbalaca |

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün*
***Azərbaycan dili (dövlət dili) fənni üzrə***
***dərslik***

**Tərtibçi heyət:**

Müəlliflər **Rafiq İsmayılov**
**Ülkər Nurullayeva**
**Aynur Rüstəmova**

Layihə rəhbəri **Rafiq İsmayılov**

İxtisas redaktoru **Dilrüba Cəfərova**
Texniki redaktor **Rəşad Nəbiyev**
Dizayner **Səbinə Vəzirova**
Rəssam **Elçin Cabarov**
Korrektor **Fəridə Ziyadova**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2021-010**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8402-7-8
Hesab-nəşriyyat həcmi 10,2. Fiziki çap vərəqi 12.
Səhifə sayı 96. Kağız formatı 57×90 1/8. Kəsimdən sonra ölçüsü: 22,0×27,5.
Şriftin adı və ölçüsü: Calibri, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tirajı 18170. Bakı – 2021.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 14.08.2021

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş. A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
“Təhsil NP” MMC (Bakı, F.Xoyski küç., 121a)

# AZƏRBAYCAN ƏLİFBASI

| | | | |
|---|---|---|---|
| A a | Aa | Q q | Qq |
| B b | Bb | L l | Ll |
| C c | Cc | M m | Mm |
| Ç ç | Çç | N n | Nn |
| D d | Dd | O o | Oo |
| E e | Ee | Ö ö | Öö |
| Ə ə | Əə | P p | Pp |
| F f | Ff | R r | Rr |
| G g | Gg | S s | Ss |
| Ğ ğ | Ğğ | Ş ş | Şş |
| H h | Hh | T t | Tt |
| X x | Xx | U u | Uu |
| I ı | Iı | Ü ü | Üü |
| İ i | İi | V v | Vv |
| J j | Jj | Y y | Yy |
| K k | Kk | Z z | Zz |

Pulsuz